# QƏDİM DİYAR

Beynəlxalq onlayn elmi jurnal

# ANCIENT LAND

International online scientific journal

aem.az

AEM

ISSN: 2706-6185
e-ISSN: 2709-4197

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

# QƏDİM DİYAR

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 1.028**

**Cild: 5 Sayı: 6**

# ANCIENT LAND

**International online scientific journal**
**Impact Factor: 1.028**

**Volume: 5 Issue: 6**

**Bakı – Baku**
**2023**

Jurnal 31.01.2012-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir
Reyestr №3534

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
31.01.2012.
Registration No. 3534

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 806 67 68
+994 12 510 63 99

**e-mail**
qedim.2012@aem.az

## Beynəlxalq indekslər / International indices

**ISSN: 2706-6185**
**e-ISSN: 2709-4197**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

DOI: https://doi.org/10.36719/2706-6185/24/26-31

**Emil Ağayev**
ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci
emilaghayev93@mail.ru
https://orcid.org/0000-0001-9354-0839

# VIII SİNİF TƏSVİRİ SƏNƏT DƏRSLİYİNDƏ QƏRBİ AVROPA İNCƏSƏNƏTİNİN TƏDRİS METODİKASI

**Xülasə**

Formalaşmaqda olan şagirdin hərtərəfli inkişafında estetik zövqün də formalaşması əsasdır. Hər bir təsviri sənət dərsliyinə diqqət yetirsək müxtəlif mövzuların şərhi, rəssamların yaradıcılığının təhlili ön planda dayanır. Təsviri sənət dərsliyində xüsusilə geniş yer ayrılan mövzulardan biri Qərbi Avropa incəsənətidir. Şagirdlər bu mövzuları öyrənməklə həm də dünyagörüşünü artırır. Bu məqalədə VIII sinif təsviri sənət dərsliyində mühüm yer tutan mövzulardan Qərbi Avropa incəsənətinin ən məşhur cərəyanları və görkəmli nümayəndələri haqqında məlumatların şagirdlərə öyrədilməsi metodikası təhlil edilir.

***Açar sözlər:*** *Azərbaycan, təhsil, orta məktəb, təsviri sənət, dərslik*

**Emil Agayev**
Azerbaijan State Pedagogical College under ADPU
emilaghayev93@mail.ru
https://orcid.org/0000-0001-9354-0839

## Teaching methodology of Western European art in VIII class fine art textbook

**Abstract**

The formation of aesthetic taste is also essential in the comprehensive development of the emerging student. If we pay attention to each fine art textbook, the interpretation of various topics and the analysis of artists' creativity are in the foreground. One of the subjects that is given a particularly large space in the fine arts textbook is Western European art. By studying these topics, students also increase their worldview. In this article, the method of teaching students information about the most famous trends and prominent representatives of Western European art, among the topics that occupy an important place in the VIII class fine art textbook, is analyzed.

***Keywords:*** *Azerbaijan, education, secondary school, fine art, textbook*

## Giriş

Orta məktəblərdə şagirdlərdə estetik zövqün inkişafında təsviri sənət fənninin mühüm rolu vardır. VIII sinif təsviri sənət dərsliyində mühüm yer tutan mövzulardan biri də Qərbi Avropa incəsənətinin ən məşhur cərəyanları və görkəmli nümayəndələri haqqında məlumatların şagirdlərə öyrədilməsidir.

**Mövzunun işlənmə dərəcəsi.**

VIII sinif şagirdləri "İmpressionizm:təəssüratların poeziyası" mövzusunda yeni bir cərəyanın inkişaf tarixi və görkəmli nümayəndələri haqqında məlumat öyrənirlər. İlkin olaraq şagirdlərin XIX əsrin ortalarınadək rəssamların emalatxanalarda, studiyalarda insan, mənzərə və ya tarixi hadisələr mövzusunda əsərlər yaratması, sonralar isə rəssamların rəngkarlıqda yaradıcılıq zamanı yeni yanaşma və metodlardan istifadə etməyi diqqətinə çatdırılır (Axundzadə, 2011: 233). Dərslikdə impressionistlərin dəyişən mühitdə işıq və rəng keçidinin bütün məqamlarını dəqiqliklə təsvir etməsi xüsusilə vurğulanır. Parisdə keçirilən sərgidən sonra bu rəssamları impressionistlər adlandırdılar.

Bu söz onların yaratdığı əsərlərə çox uyğun gəlirdi, çünki rəssamlar bilavasitə gördüklərindən aldıqları təəssüratları təsvir edirdilər. Bütün bu fikirləri şagirdlər əsərlər üzərində izləyirlər (Agayev, 2023: 30).



**İLL 1. Klod Mone "Təəssürat. Doğan günəş"**

Dərslikdə impressionizm dövrünün görkəmli sənətkarlarından biri fransız rəssamı Klod Monenin işıq və rəngə vurgunluğu onun çoxillik tədqiqat və eksperimentlər aparması diqqətə çatdırılır. Xüsusilə təbiətin çox sürətlə, bir anda dəyişən çalarlarını kətan üzərinə köçürmək istəyi onun əsas məqsədi idi. Klod Mone Sena çayı boyunca, ona emalatxananı əvəz edən qayıqla hərəkət edərdi. O, hava şəraitindən asılı olaraq daim dəyişən rənglərin ötəri təəssüratlarını təsvir etməyi qarşısına başlıca məqsəd qoymuşdu. Şagirdlər "Ruan kilsəsi" silsiləsində rəng dəyişkənliyini xüsusilə izləyirlər (Məmmədli, 2023: 183).



**İLL 2.Klod Mone "Arjanteydə körpü"**

"Eduard Mane:impressionizmdə natürmort" mövzusunda XVII əsrdən etibarən natürmortun Avropada müstəqil janr kimi meydana çıxması, daha parlaq və dərin məzmunu ilə Flandriya və Niderlandda çiçəklənərək inkişaf etməsi barəsində məlumat verilir. Realist üslubda yaradılmış natürmort öz inkişafını böyük fransız impressionisti Eduard Manenin yaradıcılığında tapmışdır. Manenin natürmortlarında kompozisiyanı sadələşdirmək üçün əşyaların sayını azatması, o dövr sənətkarlarının çox sevdiyi hədsiz yüklənməyə və yaxud süni yaradılmış mürəkkəbliyə onun yaradıcılığında izlənilməməsi şagirdlərin diqqətinə çatdırılır (Kərimov, 2007).



**İLL 3.Eduard Mane "Yasəmən dəstəsi"**

VIII sinif təsviri sənət dərsliyində Ogüst Renuarın yaradıcılığında məişət janrının sonrakı inkişafı, sənət əsərləri ilə təhlil edilmişdir. XIX-XX əsrlərdə məişət janrında yeni xüsusiyyətlər yer alır: kəskin xarakterli, müxtəlif hadisələrin və psixoloji durumların təsvirinə maraq artır, sənətkarlar əbədi məişət sirlərini açmağa cəhd edirlər. Dünyanın şən, şux qavranılması bütövlükdə bütün impressionizmə xas olan cəhət kimi vurğulanır, bunun da Ogüst Renuarın yaradıcılığında mühüm cəhət kimi daha aydın nəzərə çarpması haqqında fikirlərə xüsusi yer ayrılmışdır (Agayev, 2023: 42).



**İLL 4.Ogüst Renuar "Loja"**

“Ogüst Roden: heykəltəraşlıqda hərəkət və emosiya” mövzusunda Rodenin əsərlərində bilərəkdən natamamlığa yol verməsi onun haqqında impressionist texnikasını heykəltəraşlıqda tətbiq etmiş ilk sənətkar kimi danışılması barəsində mühüm məlumat verilir. Rodenin heykəltəraşlığa gətirdiyi ən parlaq nümunə “Mütəfəkkir” əsəri xüsusilə vurğulanır. Cilalanmış bürünc heykəlin çapılmış səthindəki qabarıq hamarlıqlar və qırışlar özündə daim dəyişən parıltını əks etdirir (VIII sinif təsviri incəsənət dərsliyi, 2019: 96). Roden üçün heykəltəraşlıqda hərəkət, həyatın əsas ifadə forması olması, heykəlləri üçün daha bir emosionallıq, qəhrəmanlarında məhəbbət, ağrı, çarəsizlik kimi güclü emosiyaların hiss edilməsi və o, bu vəziyyətlərin real, inandırıcı təsvirinə nail olunması barəsində mühüm məlumatlar şagirdlərin diqqətinə çatdırılır.



**İLL 5. Ogüst Roden “Mütəfəkkir”**

Dərslikdə həmçinin özünəməxsus parlaq yaradıcılıq üslubu ilə seçilən Vinsent Van Qoqun rəngkarlıqda öz fərdi tərzi haqqında da geniş məlumatlar verilmişdir.Van Qoqun yaradıcılığı Avropa mədəniyyəti tarixində mürəkkəb keçid dövrünü əks etdirir. Onun yaradıcılığı həyata, sadə, zəhmətkeş insana alovlu, çılğın məhəbbətlə doludur. Van Qoqun əsərlərindəki özünəməxsus yaradıcılıq ehtirası, onun ani ifadə qüvvəti və faciəvi coşqunluğu şagirdlərdə maraq oyadır (VIII sinif təsviri incəsənət metodik vəsait, 2015: 96).



**İLL 6.Vinsent Van Qoq “Kəsilmiş dörd günəbaxan”**

VIII sinif şagirdləri Pol Qogenin yaradıcılığı haqqında mühüm məlumat öyrənirlər. Simvolizm və modern üslubuna yaxın, postimpressionizmin əsas nümayəndələrindən olan Pol Qogen sintetik ümumiləşdirmələrdən, rəng və xətlərin sadələşdirilməsindən məharətlə istifadə edirdi. O, sağlığında şöhrət tapıb çox məşhur olmasa da, postimpressionizmin tanınmış sənətkarları onu yüksək qiymətləndirirdilər (8).

“Anri Matis: rəngkarlıqda dekorativlik, forma və rəng” mövzusunda ilk növbədə şagirdlərə Parisin rəsm salonlarının birində tanınmış rəssamların əsərləri ilə yanaşı, Anri Matisin də “Yaşıl şlyapalı qadın” əsərinin nümayiş etdirilməsi diqqətə çatdırılır. Portretdən tamaşaçıya yanakı əyləşmiş hündür şlyapalı qadın baxır. Onun asimmetrik üz cizgiləri “vəhşi” boyalarla çəkilmişdir. Təsvir real insana o qədər oxşamırdı ki, onun eybəcər görünməməsi mümkünsüz idi. Bu əsər qalmaqallı gurultu qopardı və fovizmin təməlini qoydu. VIII sinif şagirdləri fovizm cərəyanının tarixi və nəzəri əsasları haqqında mühüm məlumat öyrənirlər (9).



**İLL 7. Anri Matis “Şlyapalı qadın”**

## Nəticə

“VIII sinif təsviri sənət dərsliyində Qərbi Avropa incəsənətinin tədris metodikası” mövzusunun əsas nəticələri aşağıdakılardır:

- XIX və XX əsrdə Qərbi Avropada məşhur olan cərəyanlar və görkəmli nümayəndələrinin əsərləri təhlil edilir.
- Şagirdlər əsərlərdə rəng, obraz və süjet həllini təhlil edir.

## Ədəbiyyat


1. Axundzadə, L. (2011). “XX əsr dünya təsviri incəsənəti”. Bakı, 233 s.
2. Agayev, E. (2023). Methodology of teaching historical events and heroic themes in the eighth class fıne arts textbook”. “9th International congress on humanities and social sciences in a changing world”. April 8-10. Turkey: Izmir, p.416-419.
3. Məmmədli, R. (2023). “XX əsr Qərbi Avropa incəsənəti. Bakı, 183 s.
4. Kərimov, Y. (2007). “Təlim metodları”. Bakı.
5. Agayev, E. (2023). “Methodology of teaching the creativity of Azerbaijanı artists ın the eighth class fıne arts textbook”. 3rd International “Artemis” Congress on humanities and social sciences. March 25-27. Turkey: Izmir, p.411-414.
6. VIII sinif təsviri incəsənət dərsliyi. (2019). Bakı: Şərq-Qərb, 96 s.

7. VIII sinif təsviri incəsənət metodik vəsait. (2015). Bakı, 96 s.
8. https://az.wikipedia.org/wiki/%C4%B0mpressionizm
9. https://az.wikipedia.org/wiki/Klod_Mone

Göndərilib: 07.03.2023 Qəbul edilib: 29.05.2023

## İÇİNDƏKİLƏR

**Firuzə Kərimova**
İngilisdilli mətnlərin tərcüməsi və onların tədrisi problemləri ............................................................6
**Arzu Babayeva**
Successfully overcoming challenges in the process of implementing communicative approach to teaching english language ..............................................................................................11
**Xatirə Xələfli, Flora Tağıyeva, Vaqif Vəkilov, Cavanşir Rəhimov, Dəstə Qasımova**
Epidemiologiyanın inkişafının qısa tarixi ...........................................................................................17
**Günel Vəliyeva**
Ucqar kəndlərdə ingilis dilinin tədrisində yaranan çətinliklər .........................................................22
**Emil Ağayev**
VIII sinif təsviri sənət dərsliyində Qərbi Avropa incəsənətinin tədris metodikası ..........................26
**Turanə Hüseynova**
Xüsusi məqsədlər üçün ingilis dilində lüğətin tədrisi və öyrənilməsi ..............................................32
**Gulnar Alizadeh**
The effect of age psychology on second language learning ...............................................................37
**Zita Hüseynova, Gülbəniz Alverdiyeva**
İngilis dilinin tədrisində yaradıcı öyrənmə üsulları və yaradıcılıq qabiliyyətinin inkişafı .....................................................................................................................................................41
**Nigar Jabrayilova**
Balancing digital and traditional: marketing strategies in the hotel industry ...................................46
**Gülhanə Hüseynova**
Ədəbiyyat dərslərində fəndaxili və fənlərarası inteqrasiyanin yaradılması (C.Məmmədquluzadənin "Qurbanəli bəy" hekayəsi əsasında) .........................................................51
**Elvin Garayev**
Basic pedagogical concepts, principles of social pedagogy ..............................................................56
**Jeyhun Islamov**
How social media differs from traditional media ..................................................................................61

İmzalandı: 27.06.2023
Formatı: 60/84, 1/8
H/n həcmi: 8.75 ç.v.
Sifariş: 651

---

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az